*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 25 yanvar 2020-ci il | № 6 (2424) | Qiyməti 30 qəpik

*Ön xətdən reportaj*

# Salam, Şuşa! Salam, çiçək!



*Sulu qar yağır...*

*30 il əvvəl də soyuğuydu. Sazaqda üç-dörd gündən sonra Şəhidlər xiyabanı adlandırılacaq Dağüstü parkda 20 Yanvar şəhidlərinə əbədiyyət ünvanı hazırlayırdıq; şəhidlərin hamısı hamımızın əziziydi. 30 ildən sonra onları ön xətdə, səngərdə həmin doğmalıqla anırıq.*

Zabit Ruslan Novruzov əsgərlərə xitabən deyir:

- 20 Yanvar şəhidlərini əbədiyyətə çiyinlərində sizin atalarınız aparmışdı, onların amalını siz gerçəkləşdirəcəksiniz, Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan siz azad edəcəksiniz!..

Səngərdə 19 yanvar gecəsindən, rus imperiyasının törətdiyi qətliamdan danışırıq. Əsgərlər "19 yanvar gecəsi azərbaycançılıq, xalqın müstəqillik mübarizəsi rus imperiyasını məğlub etdi...", - deyirlər. Bu kəlmələr qışın sazağını yumşaltmaq qüdrətindədi...

Söz-sözü çəkir...

Əsgərlərdən biri "Ermənistanın Azərbaycandan torpaq iddiası müstəqillik mübarizəsini kükrətdi", - deyir, biri "Rus imperiyası bu kükrəyişdən qorxuya düşdü", - deyir, biri "O qorxu məğlubiyyətlə nəticələndi", - deyir,... Zabit Ruslan Novruzov söhbətin başlanğıcında deyilənləri ümumiləşdirir: "Tarixən heç bir imperiya əsarətdə saxlamaq istədiyi xalqın mübarizə əzmindən, azadlıq istəyindən güclü ola bilməyib..."

"Müharibə torpaqlarımızda səngərlər yaratdı. Səngər də Vətən torpağıdı. Səngərdə Vətən kəlməsinin yozumu da, dərki də duyğudan daha çox düşüncəyə görədi. Fikrim təkrara yozulmasa, deyərdim ki, "Vətən, səndən ayrı ömrü neynirəm" deyənlər üçün səngər Böyük Qələbənin yolları üstə müvəqqəti dayanacaqdı. Müqəddəsliyin qorunmasında mühüm vasitə olan səngərlərdə bütün söhbətlərin mahiyyəti Vətəndi, torpaqdı, qələbədi, şükranlıq yaşadacaq anların intizarıdı,...", - deyirəm.

Hamımız əminik ki, şaxta-sazaq səmimi kəlmələşməni üşüdə bilməyəcək.

Döyüş növbətçiliyindən söz düşür. Ötən ay səngərdə əsgərlərdən birinin dediklərini xatırlayıram:

- "Vətən, səndən ayrı ömrü neynirəm" deyən əsgərin yaşadığı duyğuları hamımız yaşamışıq, yəni, hamımızın hərbi xidməti bu zəruri başlanğıcdan keçir. Uzaqdan uzağa da olsa elə gözəl, yaddaqalan, düşündürücü fikirlərinə, döyüş növbətçiliyi haqqında dediklərinə və həmin duyğuları unutmadığına görə, o əsgərə sağ ol deyirik.

Onda əsgərin qaşları çatılmışdı, narahatlıqla alnını ovuşdurmuşdu, nələrisə xatırlamışdı, xatırladıqlarından düşüncələrinə işıq düşmüşdü:

- Bəlkə də onu heç zaman tanımayacam. Tanısam da, tanımasam da, onu ürəyimdə yaşadacam. Bəlkə də heç zaman qarşılaşmayacağıq. İstəyirəm bilsin ki, qazaxlı Səlim Şükürov ad-soyadlı bir qardaşı da var. Dağ dağa rast gəlməz, insan insana rast gələr. Gec, ya tez.

Bir anlığa mənə elə gəlmişdi ki, əsgər Səlim Şükürov nəyisə, nələrisə dəqiqləşdirmək istəyir - sözünə ara vermişdi, yoldaşlarından nəsə soruşmaq istəmişdi. Soruşmamışdı. Sözünə ara verməsi nələrisə dəqiqləşdirmək üçünmüş. Fikrindən daşınmışdı. Araya nizamsız bir sükut çökmüşdü. Bu nizamsız sükutun içindən beş-on addım aralıda hərdən əsən, hərdən kəsən yelin təsirindən yarpaqları titrəşən ağaca baxmışdıq. Saralmaqda olan yarpaqların titrəyişində qəribə bir kövrəklik vardı. Bu duyğusal görüntü əsgər Səlim Şükürovun düşüncələrini nizama salmışdı, fikirlərini öz axarına qaytarmışdı:

- O əsgərlə Cıdır düzündə görüşməyi arzulayıram. Əvvəl-əvvəl tanımaza-bilməzə təbrikləşək, sonra tanış olaq, mətləb verib mətləb alaq, bu günü, bugünkü söhbəti xatırlayaq. "Sənə bir təşəkkür borcum var", - deyəm, qoşa qollarım kürəyində çarpazlaşa...

Bu boyda istək, istəkdən də ötə olan niyyət bir ürəyə sığa bilməzdi - sığmadı, ürək bu istəyə, niyyətə darlıq edərdi - darlıq etdi...

Bu duyğusal söhbətin mahiyyətini təkcə bir əsgərin başqa bir hərbi hissədə deyilmiş dəyərli fikirləri - belə fikirləri şəxsi heyətin mənəvi-psixoloji hazırlığında dəyərli didaktik tezislər hesab edirəm - ancaq xatırlatma kimi yaşamışdım. Bu söhbətin mahiyyətində - Azərbaycan əsgərinin düşüncələrində hərbi xidmətə sədaqətin, döyüş növbətçiliyində məsuliyyətin, əsgər dostluğuna ehtiramın, zabitlərə sayğının, hörmətin, etimadın,... səviyyəsini, xalqın istəyinin ifadəsini, bu istəyin zərrəsi olan fərdi istəyin qətiyyətini duymuşdum, eşitdiklərimi yaddaşıma da yazmışdım, düşüncələrimə də hopdurmuşdum...

Ezamiyyətdə əsgər Səlim Şükürovun yerə-göyə sığışmayan istəyi haqqında kəlmələşmişdik. Əsgərlərdən biri qələbə haqqında danışmışdı, biri Böyük Qələbə haqqında, biri Şüküratazı, biri Ərgünəşi, biri Şuşanı xatırlatmışdı, biri - əsgər Əhməd Seyidov Cıdır düzündən dərəcəyi çiçəklərdən söz açmışdı. Əsgər Tahir Qasımov Əhməddən yarızarafat-yarıciddi soruşmuşdu ki, o çiçəkləri kimə aparacaqsan. Əhməd bir anlığa duruxmuşdu, alnına soyuq tər gəlmişdi, gözləri dolmuşdu. Gecdən gec "Şəhidlər xiyabanına aparacam, şəhid qardaşıma...", - demişdi.

**(Ardı 4-cü səhifədə)**

# Zakir Həsənov: Azərbaycan və Gürcüstan həm ikitərəfli, həm də üçtərəfli formatlarda səmərəli əməkdaşlıq edir

*Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvili yanvarın 21-də Tbilisidə keçirilən görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər.*





İrakli Qaribaşvili görüşün əhəmiyyətini qeyd edərək, Gürcüstanın ərazi bütövlüyünün təmin olunmasında göstərdiyi dəstəyə görə ölkəsinin adından Azərbaycan tərəfinə minnətdarlığını bildirib. O deyib ki, Gürcüstan ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Azərbaycan ilə Gürcüstan arasında 2020-ci ildə hərbi sahədə əməkdaşlığa dair fəaliyyət planının imzalanması bu istiqamətdə əlaqələrimizin inkişafına mühüm töhfə verəcək.

Gürcüstanın Müdafiə naziri ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin 2020-ci ildə daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mehriban qonşuluq və yaxın dostluq münasibətlərinin önəminə toxunub. Görüşdə regionda hərbi-siyasi vəziyyətin müzakirə olunduğunu vurğulayan general-polkovnik Zakir Həsənov bildirib ki, Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü tam dəstəkləyir. Biz də bütün beynəlxalq təşkilatlarda həmin dəstəyi Gürcüstan tərəfindən görürük.

Azərbaycanın və Gürcüstanın regionda böyük əhəmiyyətə malik birgə layihələr həyata keçirdiklərini deyən nazir diqqətə çatdırıb ki, ölkələrimiz arasında siyasi, iqtisadi, hərbi və digər sahələrdə əməkdaşlıq uğurla inkişaf edir: "Biz hərbi sahədə həm ikitərəfli, həm də üçtərəfli - Azərbaycan-Gürcüstan-Türkiyə formatlarında səmərəli əməkdaşlıq edirik. Söhbət zamanı regiondakı böyük iqtisadi layihələri və onların təhlükəsizliyinin təmin olunması məsələlərini də nəzərdən keçirdik".

Görüşdə 2020-ci ildə hərbi sahədə əməkdaşlığa dair fəaliyyət planının imzalanmasının əhəmiyyətinə toxunan nazir qeyd edib ki, planda şəxsi heyətin birgə təlimlərinin təşkili və digər tədbirlər nəzərdə tutulub. General-polkovnik Zakir Həsənov ölkələrimiz arasında hərbi əməkdaşlığın uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

* * *

Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti yanvarın 21-də Tbilisi şəhərində yerləşən Qəhrəmanlar meydanındakı Gürcüstanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olan vətəndaşların xatirəsinə ucaldılmış memorialı ziyarət edib. Ənənəyə uyğun olaraq nümayəndə heyətinin rəhbəri abidənin önünə əklil qoyub, digər üzvləri isə memorial qarşısına çiçək dəstələri düzərək ehtiramlarını ifadə ediblər.

* * *

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyətinin Gürcüstana rəsmi səfəri çərçivəsində yanvarın 21-də general-polkovnik Zakir Həsənovla Gürcüstan Parlamentinin sədri Arçil Talakvadze arasında görüş keçirilib.

Azərbaycan-Gürcüstan münasibətlərinin dostluq, qarşılıqlı etimad üzərində qurulduğunun bildirildiyi görüşdə dövlət başçılarının mütəmadi işgüzar görüşləri və səfərlərinin əlaqələrimizin daha da gücləndirilməsinə təkan verdiyi xüsusi qeyd olunub. Tərəflər qarşılıqlı maraqlara cavab verən bu münasibətlərin regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsinə xidmət etdiyini bildiriblər.

Görüşdə, həmçinin terrorizmə və separatizmə qarşı mübarizə aparan ölkələr olaraq Azərbaycan ilə Gürcüstan arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsinin və bu məsələlərdə qarşılıqlı dəstəyin vacib olduğu bir daha vurğulanıb.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**24 yanvar 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Sarıcalı, Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# Vətən - and yerimiz

*Hərbi formanı geyindiyimiz andan qarşımızda bir məqsəd dayanır - Vətənimizə layiqli xidmət etmək. Vətənə xidmət əsgərlərimizin amalıdır. "N" hərbi hissəsində rastlaşdığımız Nəcmi Məcidzadə də Vətənə sevgi ilə xidmət edən əsgərlərdəndir. Nəcmi düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində xidmət edir. Şux duruşu, cəld və çevik hərəkətləri qorxmaz və cəsarətli olduğundan xəbər verirdi.*



- Uşaq vaxtlarından atam "Vətən - anamızdır" deyərdi, Qarabağ müharibəsindən, orada yaşadıqlarından, ermənilərin törətdikləri insanlığa sığmayan vəhşiliklərdən danışar, gözləri dolardı. Arzulayardı ki, Ali Baş Komandan döyüş əmri versin. O da döyüşənlərin sıralarına qatılsın.

Çağırış vərəqəsi gələndə atamın dediklərini unutmaram. "Get, layiqincə xidmət elə. Tezliklə torpaqlarımız işğaldan azad ediləcək. Tarixi qələbədə sənin də payın olacaq" sözləri məni daha da ruhlandırdı. Xidmətə gəldiyim gündən komandirlərimizin köməyi ilə hərbi biliklərə dərindən yiyələnməyə çalışıram. Günün nizam qaydalarına uyğun olaraq, səhər və axşam vaxtlarında fiziki hazırlığımızı artırırıq. Nəzəri biliklərimizi təcrübi olaraq möhkəmləndirirk. Taktiki və atəş hazırlıqları ən çox sevdiyim dərslərdir. Yuxarı komandanlıq da buna xüsusi diqqət yetirir. Bunun sayəsində bütün təlimlərdə qarşımıza qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlirik. Təlimlərdə bölməmizin aldığı yüksək qiymət komandirlərimizin üzərimizdə çəkdiyi əziyyətin bəhrəsidir.

"Hərbi xidmət hər bir əsgərin yaddaşında silinməz izlər qoyur. Dekabrın sonlarında Müdafiə nazirimizin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə döyüş mövqeyimizə ziyarəti mənim yaddaşımda silinməz izlər buraxdı. Nazirliyin rəhbər heyəti bizim sosial-məişət şəraitimiz ilə tanış oldu. Xidmətimizlə maraqlandılar. Həmin an həm çox həyəcanlı idik, həm də qürur hissi keçirdik. Ordumuzun rəhbərliyini səngərdə görmək bizi daha da ruhlandırdı. Komandirlərimizin dəstəyini, diqqət və qayğısını üzərimizdə hər zaman hiss edirik. Ali Baş Komandanımızın döyüş əmriylə şəxsi heyət torpaqlarımızı işğaldan azad edəcək, üçrəngli bayrağımızı doğma Qarabağımızda dalğalandıracaq.

Əsgər Nəcmi Məcidzadə Azərbaycan əsgərini təmsil edir. İnanırıq ki, əsgərlərimizin Vətən sevgisi, məhəbbəti xalqımızın torpaq həsrətinə son qoyacaq. İşğal altında olan torpaqlarımızın düşmən tapdağından azad ediləcəyi gün uzaqda deyil.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Həzi Aslanovun 110 illiyinə həsr olunan yubiley tədbirlərinə start verilib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Şəhidlər xiyabanında, general Həzi Aslanovun məzar-abidə kompleksi önündə xalqımızın igid oğulları sırasında adı qəhrəmanlığın rəmzinə çevrilən, dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə mahir hərbi sərkərdə istedadı nümayiş etdirərək hərb salnaməsinə yeni parlaq səhifələr yazan görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Müdafiə Nazirliyinin general, zabit, gizir, kursant və əsgərləri, Təhsil və Mədəniyyət nazirliklərinin, xüsusi təyinatlı təhsil müəssisələrinin, Bakı qarnizonundakı hərbi hissələrin, veteran təşkilatlarının, qəhrəmanın adını daşıyan müəssisələrin, təhsil və mədəni-maarif ocaqlarının nümayəndələri, generalın ailə üzvləri iştirak ediblər.

Əvvəlcə məzar-abidə kompleksi önünə Müdafiə Nazirliyi adından əklil qoyulub, qəhrəmanın xatirəsi ehtiramla yad edilib, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin müşayiəti ilə Dövlət himni ifa olunub.



"Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Müdafiə nazirinin əmri ilə yaradılan Təşkilat komitəsinin üzvü, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani H.Aslanovun hərb tarixində müstəsna xidmətlərindən danışıb və Prezident Sərəncamının təkcə bir qəhrəmana deyil, ümumiyyətlə, İkinci Dünya müharibəsi illərində müxtəlif cəbhələrdə vuruşan, Qafqazdan Berlinədək şanlı döyüş yolu keçən Azərbaycan övladının xatirəsinə böyük ehtiramın bariz nümunəsi olmaqla yanaşı, həm də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyətinin, eləcə də gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Nəzərə çatdırılıb ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, eləcə də Kremldə məsul vəzifə tutduğu vaxtlarda xalqımızın tarixinə sonsuz hörmətlə yanaşıb, əsrlər boyu torpaqlarımıza təcavüz edən yadelli işğalçılar qarşısında boyun əyməyən, diz çökməyən xalq qəhrəmanlarının, görkəmli hərbi sərkərdələrin hünər və rəşadətlərini yüksək qiymətləndirib, yeni nəslin hərbi vətənpərvərlik tərbiyəsində ata-babaların qəhrəmanlıq ənənələrindən bəhrələnməyi, bu ənənələri davam etdirməyi məsləhət görüb. Ulu Öndər əcdadlarımızın qəhrəmanlıq nümunələrinin bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olduğunu dəfələrlə qeyd edib.

Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevə görə xalq öz qəhrəmanlıq tarixini öyrənmədən, qiymətləndirmədən yeni qəhrəmanlar yetişdirə bilməz. Gələcək qəhrəmanlıqların, igidliklərin təməli tariximizdədir, atalarımızın keçdiyi şanlı döyüş yolundadır.

Xatırlanıb ki, Ulu Öndər nəinki respublikamızda, həmçinin Vətənimizin hüdudlarından uzaqlarda da Azərbaycan oğullarının qəhrəmanlıqlarının təbliği, adlarının əbədiləşdirilməsi, tanıdılması istiqamətində çox mühüm işlər görüb.

Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Krımın Kerç rayonunda, Sapun-Qora yaxınlığında 77-ci, Rostov vilayətinin Taqanroq şəhərinin Sambek yüksəkliyində 416-cı Azərbaycan milli atıcı diviziyalarının şanlı döyüş yollarını əbədiləşdirmək məqsədilə on hektardan çox ərazidə möhtəşəm abidə kompleksləri yaradılıb. Həzi Aslanov, Mahmud Əbilov, Akim Abbasov, Məlik Məhərrəmov və bir çox general və zabitlərin yubileyləri dövlət səviyyəsində qeyd olunub, neçə-neçə Sovet İttifaqı Qəhrəmanının ev muzeyi yaradılıb və abidələri ucaldılıb.

Anım mərasimində vurğulanıb ki, ulu öndər Heydər Əliyev general-mayor Həzi Aslanovu Böyük Vətən müharibəsində döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisi kimi qiymətləndirərək "O, bu döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi keyfiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir", - demişdir.

Hər il respublikamızda 9 May - Qələbə Günü tədbirləri ümummilli lider Heydər Əliyevin iştirakı ilə məhz Həzi Aslanovun məzar-abidəsi qarşısında keçirilən anım mərasimi ilə başlanardı.



Bu ənənələr Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir.

Məlumat üçün bildirilib ki, "Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə bağlı Müdafiə, Təhsil və Mədəniyyət nazirliklərinin birgə tədbirlər planında nəzərdə tutulub ki, ilboyu respublikanın bölgələrində, hərbi hissələrdə, təhsil və mədəniyyət müəssisələrində beynəlxalq konfranslar, tank heyətləri arasında yarış-müsabiqələr, fotosərgilər, teatrlaşdırılmış kütləvi mərasimlər, vətənpərvərlik filmləri həftəsi keçirilsin. İl ərzində Həzi Aslanovun keçdiyi döyüş yolu və adı ilə bağlı ünvanlara ekskursiyalar təşkil olunacaq, yeni kitablar, albom, plakat və açıqcalar nəşr ediləcək, qəhrəmanın tank və mexanikləşdirilmiş digər zirehli texnikalar sahəsində yenilikləri və hərbi elmi məqalələri əsasında sənədli tədris filmi çəkiləcək, eləcə də Bakı Bələdiyyə Teatrında A.Qurbaninin "Həzi Aslanov xatirələr işığında" pyesi tamaşaya hazırlanacaq. Bundan əlavə faşizm üzərində qələbənin 75 illiyinə həsr olunan Beynəlxalq Əsgər Mahnıları festivalı iştirakçılarının Lənkəran şəhərinə səfəri və festival çərçivəsində qəhrəman həmyerlimizə həsr olunan konsert proqramının təşkili reallaşacaq. Rusiya Federasiyası "Zvezda" televiziya kanalının istehsalı olan "Ordu əfsanəsi Həzi Aslanov" filminin yaradıcı heyəti ilə görüş, respublika musiqi və teatr kollektivlərinin iştirakı ilə ədəbi-bədii gecə, Azərbaycan Dövlət Pedaqoji və İqtisad Universitetlərində konfrans və kütləvi vətənpərvərlik tədbirlərinin keçirilməsi də planlaşdırılıb.

Anım mərasimində Həzi Aslanov irsinin tədqiqi və araşdırılmasında müstəsna xidmətləri olan Əməkdar incəsənət xadimi, tədqiqatçı-jurnalist Musa Bağırov, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı sədrinin müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov, Aslanovlar ailəsi adından qəhrəmanın nəvəsi Emin Aslanov çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ediblər.

Tədbir Azərbaycan Bayrağı altında Fəxri Qarovulun Həzi Aslanovun abidəsi önündən təntənəli keçidi ilə başa çatıb.

# Salam, Şuşa! Salam, çiçək!

(Əvvəli 1-ci səhifədə)

Araya ruhu candan aralayan sükut çökmüşdü. Belə ağır, üzücü sükutu balaca Zəhranın dəfnindən bir neçə gün sonra Füzulinin Alxanlı kəndində də yaşamışdıq, şair Abdulla Qurbaninin elegiyasını dinləyəndə. Elegiya təkcə balaca Zəhranın ölümünə şair kədərinin ifadəsi deyildi, bu elegiya uşaq ölümlərinə, müharibələrə şair etirazıydı, azyaşlı Zəhranın ruhuna ədəbiyyatın təsəllisiydi...

...Səngərə ruhu candan aralayan sükut çöküb. Düşüncələrin nizamını tərpədən, düşüncələri nizama salan belə məqamları adiliklə yaşamaq mümkün deyil. Belə mümkünsüzlüklərin sıxıntılarını yumşaltmağa təsəlli gərəkdi. Bütün vətənsevərlər, Vətənin ucalıq mərtəbəsində qorunmasının cəfakeşləri müharibə başlayandan bəri bütün sıxıntılara, ağrı-acılara bircə təsəlli bilib - torpaqlarımızın işğaldan azad edilməsi. Bu qadir təsəlli tarixi təsəlli olacaq, Ali Baş Komandanın döyüş əmrini tamamlayacaq Böyük Qələbəylə yaşanılacaq...



Əsgər Səlim Şükürovun tanımadığı əsgərlə Böyük Qələbədən sonra Cıdır düzündə qarşılaşma, görüşmə, təbrikləşmə, bundan sonra tanışlaşma istəyində də, çiçək dərmə niyyətində də bir ehtiram var. Belə bəşəri ehtiramlar ictimaiyyətin orduya münasibətinin ifadəsidi...

Zabit Etibar Hacıyev əsgərlərdən soruşur: "Əsgər Səlim Şükürovun Cıdır düzündə tanımadığı, mənəvi qardaş bildiyi bir əsgərlə görüşmək istəyi, çiçək dərmə niyyəti nələri ifadə edir?" Əsgər Rəhman Alıyev deyir - Azərbaycan əsgərinin vətənsevərliyini, döyüş əzmini, qələbə ruhunu, yüksək döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji hazırlığının səviyyəsini. Əsgər Kərim Kəbiyev deyir - Ali Baş Komandanın döyüş əmrinə hazır olduğunu, döyüş əmrini qələbəylə tamamlayacağına əminliyini. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vaqif Əliyev deyir - ordunun xalqa arxalandığını, bunların vəhdətini, bu vəhdətin Vətən sevgisinin tərkib hissələrindən biri olduğunu,...

Cıdır düzündən dəriləcək çiçəklər amilində doğmalıq, yaxınlıq-uzaqlıq çaları yoxdu:

Tovuzda Şəhidlər xiyabanında həmişə 19 yaşında qalacaq bir oğulun - şəhid əsgərin daş baxışları məni varımdan yox eləmişdi, baxışlarım daş baxışlardan üzülmürdü. Kimsə çiynimə toxunmuşdu, qanrılıb baxmışdım. Çingiziymiş.

- Tanıyırdınmı? - canıyananlıqla soruşmuşdu.

- Tanıyırdım, - demişdim.

- Kiminiydi? Kimiydi?

- Azərbaycanın əsgəriydi, Azərbaycan əsgəriydi...

Yəni, hər şəhid hər birimizin əzizidi...

...Səngərdə döyüş növbətçiliyi haqqında başlayan söhbətdə əsgərin, əsgərlərin düşüncələrindən mənim də düşüncələrim barınır. Bu səmimi, düşündürücü söhbət xalqın bəşəri istəyiylə, ordudan gözləməsiylə tamamlanır. Belə tamamlanma hər birimizə könül xoşluğu verir. Bir daha əmin oluruq ki, müharibədə, müharibə şəraitində Azərbaycan əsgərinin döyüş növbətçiliyinin mahiyyəti torpaqlarımızın işğaldan azad edilməsidi - qələbədi, şəhidlərimizin məzarına Cıdır düzündən dərilmiş bir dəstə çiçək aparmaqdı,...

Biri digərini tamamlayan iki səngər söhbəti, bu söhbətlərdə Səlim Şükürovun və Əhməd Seyidovun dediklərini Azərbaycan əsgərinin ictimaiyyətə sözü bilmişdim. Bu söz zəmanət qüdrətindəydi: Azərbaycan əsgəri yaxın vaxtlarda işğalı sonlandıracaq. Bu zəmanət-söz, söz-zəmanət əminliyiydi. Bir daha ona da əmin olmuşduq ki, şəhidlərimiz əbədiyyən unudulmayacaq.

Böyük Qələbə ərəfəsində Azərbaycan əsgəri qətiyyətlə, inamla deyir ki, Cıdır düzündə görüşəcəyik.

Əsgərlərin əhatəsində xəyalən əsgər Səlim Şükürova xitabən deyirəm ki, qardaş bildiyin o əsgərlə Cıdır düzündə sən də görüşəcəksən. O görüşdən yazacağım reportajı "Salam, Cıdır düzü, salam, əsgər qardaşım!" adlandıracam. Səninlə həmin əsgərin qoşa şəklinə şəkil sözü olaraq yazacam: Qələbə günü - görüş günü...

...Döyüş əzmindən, qələbə ruhundan danışırıq...

Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızın işğaldan azad ediləcəyindən danışırıq...

Söz sözü çəkir. Söhbətin əvvəlində dediyim bir fikri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vüsal Xəlilov duyğusallıqla təkrarlayır: "...səngərlərdə bütün söhbətlərin mahiyyəti Vətəndi, torpaqdı, qələbədi... Əsgərlər qürurla "Salam, Şuşa! Salam, çiçək!" nidasının göy üzünə yayılacağı günə az qalıb" deyirlər...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Ukrayna radiosunda Ermənistanın işğalçılıq siyasəti pislənilib

Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması regionda iqtisadi inkişafa əngəl olur.

AZƏRTAC xəbər verir ki, bu fikri Ukraynanın 106.1 FM radiosuna müsahibəsində Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev söyləyib.

Səfir vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ədalətli həll edilsə, regionda iqtisadi göstəricilər mövcud vəziyyətdən 2-3 dəfə yaxşı olar.

20 Yanvar faciəsinə toxunan səfir vurğulayıb ki, ötən sərin 90-cı illərinin sonunda Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, Dağlıq Qarabağ bölgəsində separatçı siyasəti Azərbaycan xalqının kütləvi etirazlarına səbəb olub. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu dinc sakinlərə qarşı amansız cinayət törədib. Əslində bu, Mixail Qorbaçovun başçılıq etdiyi səriştəsiz sovet rəhbərliyinin Azərbaycan xalqının iradəsini qırmağa qərar verən xain bir hərəkəti idi. Bununla Azərbaycan xalqının azadlıq və ədalət əzmini sındırmaq istəyirdilər. Lakin əksinə, bu hadisə SSRİ-nin süqutunu tezləşdirdi.

A.Xudiyev müsahibəsində, həmçinin Azərbaycan iş adamlarının Ukraynaya investisiya yatırımından da söhbət açıb.

*Ön xətdə "N" hərbi hissəsində "20 Yanvar: azərbaycançılığın qalibiyyət gecəsi" haqqında hərbçilərin fikirlərini dərc edirik.*

**"Azərbaycan Ordusu"**

# 20 Yanvar: qəhrəmanlıq tarixi



*Mayor Ruslan Novruzov:*

- Tarixi yaşatmaq hər bir vətəndaşın müqəddəs borclarındandır. Müqəddəsliyi qorumaq müqəddəsliyin əsgəri olmaq deməkdir. Biz müqəddəs bir borcun icraçılarıyıq - hərbçiyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh yoluyla həll olunmasa, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan Ali Baş Komandanın döyüş əmriylə azad edəcək. Ordumuz güclüdür, qüdrətlidir, dünyanın ən güclü ordular sırasındadır, Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa qadirdir.

1990-cı ilin 19 yanvar gecəsi rus imperiyası Bakıya qoşun yeritdi, qırğın miqyasında faciə törətdi. Bu faciə müstəqillik mübarizəsi aparan xalqın iradəsini qıra bilmədi. Həmin gecə xalqımız qətliam törədən rus imperiyasına da, dünyaya da təsdiqlədi ki, bu birliyin, illərlə gizlin-aşkar aparılan bu mübarizə əzminin qarşısını almağa qadir olan istər siyasi, istərsə də hərbi güc mövcud deyil.

Hər il olduğu kimi, bu il də 20 Yanvar faciəsi ərəfəsində bu mövzuda keçirilən ictimai-siyasi dərsdə bir daha əmin olduq ki, əsgərlərimiz dövlətçilik tarixlərimizdən olan 20 Yanvar faciəsi haqqında əhatəli məlumata malikdirlər və bu faciənin mahiyyətini yaxşı dərk edirlər. Onu da dərk edirlər ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının müstəqillik mübarizəsinin rus imperiyası üzərində tarixi qələbəsi günü oldu.



*Kapitan Anar Kazımov:*

- 20 Yanvar faciəsi "Mən azərbaycanlıyam!" - deyənlərin də, Azərbaycanı tanıyan, ona mənən bağlananların da qəhəri oldu, bu qəhərin gizlitilərini dövlətçilik sevgisiylə üstələyən qüruru oldu. O vaxta kimi xalq elə bilirdi ki, hərbçilər dövləti qoruyur. Az sonra öyrəndi ki, bəzən hansı siyasi məqsədləsə orduya başqa tapşırıqlar da icra etdirilə bilərmiş. 1990-cı ilin 19 yanvar gecəsi hökumət ordunu Bakıya qətliam törətməyə göndərdi. O gecə müharibədə belə qadağan edilmiş güllələrdən istifadə edən ordu hissələri silahsız nümayişçilərə qarşı amansız faciə törətdi.

Onda 10-12 yaşlı uşaqlar bu faciənin siyasi mahiyyətini dərindən dərk edə bilməzdi. Müəllimlərim bu faciə ilə bağlı bütün suallarıma ətraflı cavablar verirdilər. O vaxtlardan hərbçi olmağı qərara aldım. 19 yanvar gecəsində qətlə yetirilənlərin arzuladığı müstəqilliyin əsgəri olmaq üçün.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldım.

Hər birimiz belə bir ordu ilə qürurlanırıq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" - fikri bizim hərbi xidmət amalımızın başlanğıcıdır...

Əsgərlərimizin mənəvi-psixoloji hazırlığının səviyyəsini yüksəltmək istiqamətində həyata keçirilən tədbirlərdə bu haqda da ətraflı söhbətlər edirik, xalqımızın dövlətçilik tarixi ilə bağlı olan 20 Yanvar tarixinin mahiyyəti əsgərlərimizin Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətində müstəsna əhəmiyyətə malikdir.

Şəhidlərimizin arzuladığı dövlət müstəqilliyimiz bərpa olundu. Bu müstəqilliyi qorumaq bizim borcumuzdur...



*Əsgər İlham Rzayev:*

- Gəncə şəhər 201 saylı orta məktəbinin məzunuyam. Gəncə Texnologiya Universitetini bitirmişəm. Rus, ingilis, ərəb, fars dillərində sərbəst danışıram. 20 Yanvar faciəsi haqqında öz mətbuatımızda oxuduqlarımın eynini bu dillərdə də oxumaq istəyiylə internet səhifələrini vaxtaşırı izləyirdim. Əksər saytlarda bu haqda gerçəkliyi əks etdirən məlumatlar verilib. Bu haqda tələbə yoldaşlarıma, hərbi xidmətdə əsgər yoldaşlarıma kifayət qədər ətraflı məlumatlar vermişəm. Hamımız bilirik ki, 20 Yanvar faciəsi rus imperiyasının Azərbaycanda müstəqillik mübarizəsinə məğlubiyyəti olub. Biz belə bir dövlətin vətəndaşı, belə bir ordunun əsgəri olmağımızla fəxr edirik.

Xalqın birliyi, məfkurə ətrafında sıx birləşməsi, tarixi ədalətsizliyi aradan qaldırma niyyəti rus imperiyasını qorxuya salmışdı və bunun qarşısını almaq üçün belə bir faciə törətdi. Lakin istəyinə nail ola bilmədi. Azərbaycanda müstəqillik mübarizəsi rus imperiyasının siyasi dayaqlarını laxlatdı, həm də imperiya dünya dövlətləri arasında nüfuzunu itirdi, imperiyalığını da. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi.

20 Yanvar faciəsi tarixdə də yaşadılacaq, yaddaşlarda da...

# Horadizdə general-mayor Həzi Aslanovun anadan olmasının 110 illiyi qeyd edilib



*Yanvarın 22-də Horadiz şəhərində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyi qeyd edilib. Dövlət Dram Teatrında keçirilən tədbirdə "N" hərbi hissəsinin əsgər və zabitləri iştirak ediblər.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, polkovnik Elşad Əbilov çıxış edərək, İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin qazanılmasında Azərbaycan xalqının xidmətlərindən, azərbaycanlıların cəbhədə göstərdiyi misilsiz rəşadətdən danışıb. Bildirib ki, xalqımızın igid oğulları sırasında general Həzi Aslanovun qəhrəmanlığın rəmzinə çevrilmiş adı dərin ehtiramla çəkilir. Dünyanın faşizmdən xilas olması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir sərkərdə istedadı nümayiş etdirib və hərb salnaməsində yeni parlaq səhifələr açıb. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir.

Natiq Azərbaycan xalqının qəhrəman oğlu Həzi Aslanovun hərb tarixində müstəsna xidmətlərindən, keçdiyi döyüş yolundan ətraflı bəhs edib. Bildirib ki, Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran rayonunun Gərmətük qəsəbəsində doğulub. 1924-1930-cu illərdə Bakı və Leninqrad hərbi məktəblərində oxuyub. 1929-cu ildə Leninqrad süvari məktəbinə daxil olub. İkiillik təhsildən sonra Kotovski adına III Bessarabiya süvari diviziyasında taqım komandiri vəzifəsinə təyin edilib.

Həzi Aslanov İkinci Dünya müharibəsində Volqadan başlamış Baltikədək bütün döyüşlərdə özünü bacarıqlı zabit kimi göstərib. Döyüşlərdəki şücaətinə görə 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. İki dəfə "Qırmızı ulduz", üç dəfə "Qırmızı bayraq", "Aleksandr Nevski", 2-ci dərəcəli "Suvorov", 1-ci dərəcəli "Vətən müharibəsi" ordenləri və saysız medallarla təltif olunub.

1945-ci il yanvarın 24-də Həzi Aslanov zabitlərin müşayiəti ilə cəbhə xəttini yoxlayan zaman mina partlamasından yaralanıb və çoxlu qan itirərək həyatla vidalaşıb. Ölümündən 47 il sonra - 1991-ci ildə Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilib. O, bu ada iki dəfə layiq görülən yeganə azərbaycanlıdır.

Füzuli Dövlət Dram Teatrının direktoru Vaqif Vəliyev çıxışında Azərbaycan xalqının cəsur övladı Həzi Aslanovun anadan olmasının 110-cu ildönümü münasibətilə keçirilən tədbirlərin gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətini yüksək qiymətləndirib. Füzuli Dövlət Dram Teatrının Həzi Aslanovun anadan olmasının 110 illiyi ilə əlaqədar "Qafqaz dağlarından boylanan günəş" adlı poetik xalq tamaşası hazırladığını bildirib.



Sonra tədbir iştirakçıları "Qafqaz dağlarından boylanan günəş" adlı poetik xalq tamaşasına baxıblar. Əməkdar artist Asif Şirinovun quruluşu əsasında hazırlanan tamaşanın quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Sənan Sevindikzadədir. Tamaşada əsas rollarda Qaçaq Qarayev, İntizar Quliyeva, Xurşud Babayeva və başqaları çıxış ediblər.

Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun keçdiyi şərəfli ömür və döyüş yolundan bəhs edən tamaşa əsgər və zabitlər tərəfindən böyük maraqla qarşılanıb.

## "Türkiyə Dağlıq Qarabağ münaqişəsini özünün də çox ciddi problemi hesab edir"

*Türkiyə Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsini özünün də çox ciddi problemi hesab edir. AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntop parlamentdə 20 Yanvar faciəsinə həsr olunan fotosərginin açılışında deyib.*

Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərindən danışan sədr bildirib ki, Azərbaycanın sevinci sevincimiz, qüruru qürurumuzdur. Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə ədalətli həllinə tərəfdar olduğunu vurğulayan parlament sədri qeyd edib ki, ölkəsi bu problemin nizamlanması ilə bağlı Azərbaycanın ortaya qoyduğu səyləri bundan sonra da müdafiə edəcək.

*Gənc zabitlərimiz*

# "Vətəni qorumaq borcumuzdur"

*Azərbaycan Ordusunun inkişafı ölkəmizdə qlobal dəyişikliklərin nəticəsidir. Bu dəyişikliklər orduda yeni, daha dinamik inkişaf mühitinin yaradılması, zabit və əsgərlərin peşəkar hazırlığının formalaşması ilə nəticələnib. İnnovativ yanaşma nəticəsində yeni standartlar əsasında fəaliyyət göstərən Azərbaycan Ordusu güclü infrastruktura və maddi-texniki bazaya malik olmaqla yanaşı, yüksək texnologiya ilə də təmin olunub. Ancaq bu amillərin heç biri peşəkar zabitlər olmadan ordunun düzgün inkişafını təmin edə bilməz. Peşəkarlıq həm də zabitin aldığı təhsilin və təcrübənin nəticəsidir.*



Leytenant Bəhruz Rəsulov 1998-ci ildə Neftçala rayon Aşağı Surra kəndində anadan olub, Cəmşid Naxçıvanski adına Hərbi Liseyi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib.

"Harada təhsil almağımızdan asılı olmayaraq vətəndaş kimi Vətənimizin, zabit kimi ordumuzun inkişafına xidmət etmək borcumuzdur", - deyə leytenant Bəhruz Rəsulov söhbətə başladı. - Azərbaycan Ordusunun gələcəyinin daha etibarlı və inamlı olması üçün təhsilli olmağımız vacibdir. Yaxşı bilirik ki, indiki dönəmdə ordunun gələcəyi onun hərbi təhsil sisteminin səviyyəsi ilə ölçülür. Bu gün bir zabit kimi şərəf duyuram ki, yiyələndiyim peşəni qəlbən sevir, hərbi qulluqçu kimi millətimə, xalqıma və dövlətimə xidmət edir, Nizamnamə çərçivəsində xidmətimə məsuliyyətlə yanaşır, bir sözlə, hərbçi nüfuzunun keşiyində dayanmağa çalışıram. Tabeçiliyimdə olan şəxsi heyətə sevgi ilə yanaşır, onların hazırlıqlı əsgər kimi formalaşması və hərbi təcrübələrinin artması üçün əlimdən gələni əsirgəmirəm.

Zabit onu da qeyd etdi ki, yurdunu, elini, obasını qoruyan hərbi qulluqçuların hesabına Vətənimiz hər zaman var olub. "Bu gün torpaqlarımızın 20 faizinin işğal altında olması bizi narahat edir. Ali Baş Komandanın döyüş əmrini biz də gözləyirik. Qürurlanırıq ki, Azərbaycan əsgəri bu amalla xidmət edir. Vətəni qorumağın önəmini anlayan, onu qorumağı amalına çevirən hərbi qulluqçularımız - Azərbaycan Ordusunun şərəfli zabit və əsgərləri var. Azərbaycan xalqı inanır ki, torpaqlarımızın keşiyində dayanan oğullar onun müdafiə qalasıdı və torpaqlarımızın gələcək azadlığının təminatçısıdı.

Torpaqlarımızın azadlığına nail olmağı ordunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığı şərtləndirir, bir də Ümummilli Liderimizin müəyyənləşdirdiyi azərbaycançılıq ideologiyasına sadiqliyi. Şəxsi heyətə hörmət və qayğı ilə yanaşmaq da, kollektivdə sağlam mühit formalaşdırmaq da əsasdır."

"Zabitin dəyəri xidmət etdiyi orduya, yaşadığı cəmiyyətə, doğma xalqına, elinə-obasına sədaqəti ilə ölçülür", - deyə leytenant Bəhruz Rəsulov söhbətinə davam etdi. - Bu gün ordumuz düşmənlə üz-üzədi. Belə bir məqamda ordumuz üçün hər gün sınaq var. Ali Baş Komandanımızın döyüş əmri ilə Aprel və Günnüt zəfərlərini qələbəylə tamamlayacağıq.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

Ordu quruculuğu

# Yüksək təminata malik olan şəxsi heyətə yüksək səviyyədə də xidmət göstərilir

Maddi-Texniki Təminat Baş İdarəsi
Arxa Cəbhə İdarəsinin Ərzaq Xidməti rəisi
polkovnik Eldəniz YƏHYAYEV



*Ordu quruculuğuna diqqət və qayğı dövlətə, dövlətçiliyə diqqət və qayğıdır. Belə qayğıyla əhatələnən ordunun şəxsi heyətinin döyüş hazırlığı da, mənəvi-psixoloji hazırlığı da yüksək olur. Bunun sosial qanunauyğunluq olduğuna əminlik üçün çox da uzaq olmayan tarixi xatırlamaq kifayətdir.*

Dövlət müstəqilliyi bərpa edilmiş Azərbaycanın ordusunu nizami ordu kimi formalaşdırmaq müəyyən obyektiv səbəblərə görə ilk vaxtlarda olduqca çətin idi.

Xalqın təkidli tələbiylə hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın dövlətçiliyini labüd iflasdan xilas etdi. Azərbaycanda ordu quruculuğunun yeni - nizami ordu kimi formalaşma mərhələsi başladı, uğurlu qələbəylə nəticələnən Horadiz əməliyyatı bu dönməz prosesin başlanğıcı oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu ordu quruculuğunda da uğurla davam etdirdi.

Azərbaycanda ordu quruculuğu sahəsində əsaslı struktur dəyişiklikləri qısa müddətdə ordunun şəxsi heyətinin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığını dünyanın hərbi ekspertlərinin də diqqətini çəkən səviyyədə yüksəltdi. Hərbi təhsildə ilkin, elmi müddəalar əsasında həyata keçirilən islahatlar zabit kadrların hazırlığı prosesini həm sürətləndirdi, həm də tənzimlədi...



Son illərdə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatlar, müxtəlif təyinatlı təlimlər, vətənpərvərlik tədbirləri şəxsi heyətin döyüş, mənəvi-psixoloji hazırlığını nəzərəçarpacaq dərəcədə yüksəltdi. İndi ordumuz bölgənin ən güclü ordusudur, dünyanın ən güclü orduları sırasındadır. Bu güc 2016-cı ilin Aprel döyüşlərində təsdiqləndi. 2018-ci ilin yayında Azərbaycan Ordusunun yaranmasının, payızında Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan möhtəşəm paradlarda qüdrət səviyyəsində bir daha təsdiqləndi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xarici siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu, daxili siyasəti iqtisadiyyatını yüksəltdi. Bu dinamik yüksəliş ordu quruculuğunun yeni mərhələsinin uğurla davam etdirilməsində əsaslı vasitələrdən biri oldu.

Hərbi xidmətə başlayanda nəyi qoruyacağını bilən gənc əsgər necə qoruyacağını zabitlərdən, komandirlərindən, təcrübəli əsgər yoldaşlarından öyrənir. Vətəni qorumaq onların, Vətəni qoruyanları yüksək kalorili ləziz və milli mətbəximizə aid yeməklərlə təmin etmək bizim vəzifə borcumuzdur.

Azərbaycan Ordusunun ərzaq təminatı ən qabaqcıl ordularla müqayisə ediləcək səviyyədədir və bu təchizat ilbəil yüksəlməkdədir. İctimaiyyət bu yüksəlişi Müdafiə nazirinin tapşırığına əsasən keçirilən "Açıq qapı" günlərində əyani şəkildə görür, belə təchizatla qürurlanır. Bunlar ordu-ictimaiyyət münasibətlərinin dönməzliyini təmin edən amillərdəndir.

Son illərdə onlarla yeni hərbi hissə inşa edilib, onlarla hərbi hissə əsaslı təmir olunub. Yeni inşa edilən hərbi hissələrin ikisinin açılışında cənab Ali Baş Komandan da iştirak etdi. Bu, şəxsi heyətin mənəvi-psixoloji hazırlığında əlavə stimul oldu. İnşa edilən, əsaslı təmir olunan hərbi hissələrdə əsgər yeməkxanalarının proyektləri Maddi-Texniki Təminat Baş İdarəsinin Arxa Cəbhə İdarəsi ilə konkret olaraq Ərzaq Xidməti İdarəsiylə razılaşdırılır. Nəticə etibarilə bu razılaşma həm yeməkxanaların estetik biçimində, həm də təbii işıqlandırılmasının təmin olunmasında əhəmiyyətli olur. İstər yeni inşa olunan, istərsə də əsaslı təmir edilən hərbi hissələrdə anbarlar yenilənir, ən müasir qurğularla, soyuducularla təchiz olunur ki, bu da müxtəlif növ ərzaqların keyfiyyətli saxlanılması, yeməklərin keyfiyyətli hazırlanmasını təmin edir. Hərbi hissələr bütün infrastrukturlarla təmin olunur. Bütün bunlar yüksək keyfiyyətli ərzaqlardan hazırlanan xörəklərin yüksək keyfiyyətli olacağına zəmanət deməkdir.

Hərbi hissələrdə yeniləşmə prosesi davam edir. Deməli, bizim xidmət sahəmizdə də yeniləşmə gedir. Bu, bizim fəaliyyətimizdə məsuliyyətimizi, xidməti vəzifələrimizi daha həssaslıqla yerinə yetirməyimizi tələb edir. Biz yüksək təminata malik olan şəxsi heyətə yüksək səviyyədə xidmət göstərməyi vəzifə borcu bilirik.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin tövsiyələri və göstərişləri əsasında Müdafiə Nazirliyinin rəhbərliyi ön xətdə yerləşən hərbi hissələrdə də yenidənqurma tədbirlərini yüksək səviyyədə təmin edibdir. Bunun nəticəsidir ki, əksər hərbi hissələrdə çörəkbişirmə sexi var, bu da şəxsi heyətin vaxtında isti, təzə çörəklə təmin edilməsi, əlavə işçi qüvvəsinə qənaət olunması deməkdir.

Bu günlərdə açılışında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da iştirak etdiyi Maddi-Texniki Təminat Baş İdarəsinin yeni Mərkəzi Ərzaq anbarı istifadəyə verildi. Ən müasir saxlama vasitələriylə - quru ərzaq məhsullarının saxlanılması üçün soyuducu sistemlərlə təchiz edilən 500 tonluq anbarlar ordunun şəxsi heyətini yüksək keyfiyyətli ərzaqlarla və konservləşdirilmiş ərzaq məhsullarıyla bundan sonra da yüksək səviyyədə təmin edəcəkdir. Vəzifəsi hərbi hissələrə yüksək keyfiyyətli xidmət göstərmək olan Ərzaq Xidməti İdarəsinin Mərkəzi anbarla bir sırada bölgələrdə də saxlama bazaları və anbarları vardır ki, bunlar da istər məsafə, istərsə də yüksək keyfiyyətli və operativ xidmət baxımından gərəklidir.

Yeni ərzaq anbarının açılışında Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun şəxsi heyətinin ilboyu təzə və yüksək kalorili qida ilə təmin olunması, hərbi hissələrin ərzaq təminatına nəzarətin gücləndirilməsi, ərzaq məhsullarının daha keyfiyyətli saxlanılması və hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verdi. Biz bu tapşırıqları da böyük məsuliyyətlə yerinə yetirəcəyik.

Yüksək keyfiyyətli yeməklər üçün yüksək keyfiyyətli ərzaq məhsulları lazımdır. Bu baxımdan müqaviləyə əsasən təminedici təşkilatlar bizim sifarişlərimizi çeşid və keyfiyyət amili əsasında Mərkəzi bazaya, bölgələrdəki bazalara və saxlama anbarlarına təhvil verir. Ərzaq məhsulları, eləcə də konservləşdirilmiş məhsullar bizim struktura daxil olan, nəzarətimiz altında fəaliyyət göstərən laboratoriyalarda ciddi yoxlanılır. Laboratoriya yoxlamalarından əlavə baytarlıq yoxlamaları da aparılır ki, belə yoxlamalar ərzaq təminatının keyfiyyətini təmin edir.



Hərbi hissələrdə əsgərlərə şəraitə, şəxsi heyətin sayına və hərbi hissənin yerinə yetirdiyi vəzifələrin mahiyyətinə görə iki növ xidmət göstərilir: servis xidməti və özünəxidmət. Şəxsi heyəti çox olan hərbi hissələrdə servis xidmətinin tətbiqi məqsədəuyğun deyil - kifayət qədər çox sayda qab-qacaq istifadə olunur, masaların yeməyə hazırlanması və yığılması xeyli vaxt aparır ki, bu da günün nizam qaydalarına riayət edilməsinə mane ola bilir. Digər tərəfdən, servis xidməti həm də şəxsi heyətin sayından asılı olaraq əlavə işçi qüvvəsi deməkdir. Özünəxidmətdə hər əsgər kombinə edilmiş sinidən istifadə edir ki, bu xidmətdə həm vaxta, həm də iş qüvvəsinə qənaət olunur. Bunlar yeməyin təşkilinin mexanizmidir. Etiraf olunur ki, əsgərlərimizin yeməkləri dadlı olur - ordu quruculuğunda həyata keçirilən islahatlardan sonra yeməkləri qadınlar, bir də ərzaq xidməti idarəsinin xətti ilə aşpazlıq kursu bitirən əsgərlər bişirirlər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişi ilə hərbi hissələrdə milli yeməklərə daha çox üstünlük verilir. Onu da qeyd etmək lazımdır ki, əsgərlərimiz üçün hazırlanan konservləşdirilmiş qidalarda da milli yeməklər üstünlük təşkil edir. Bütün bunlar, yuxarıda qeyd etdiyim kimi, laboratoriyalarda ciddi şəkildə yoxlanılır, yəni, həm bişirilən yeməklər, həm də konservləşdirilmiş yeməklər dadlı olur.

Bütün növ qablaşdırmalar, konservləşdirmələr birmənalı şəkildə dövlət standartlarına müvafiq, müəyyənləşdirdiyimiz keyfiyyəti yüksəltməni təmin edən şərtlərimiz əsasında aparılır. İstər qablaşdırılma, istərsə də konservləşdirilmə prosesinə bizim ekspertlər nəzarət edirlər. Bu səbəbdən keyfiyyət həmişə təmin olunur.

Neçə illərdir ki, "Beynəlxalq Ordu Oyunları" yarışları çərçivəsində "səhra mətbəxi" müsabiqəsi keçirilir. Azərbaycan bu yarışmada yüksək məsuliyyətlə təmsil olunur. Azərbaycanın hərbi "Səhra mətbəxi" bu yarışmalarda həmişə fərqlənib. Qürurla qeyd etməyi lazım bilirəm ki, yarışlar zamanı Azərbaycana aid pavilyonun qarşısında həmişə böyük növbə olur. Bu, Azərbaycanın mətbəxinə, mətbəx mədəniyyətinin timsalında Azərbaycan mədəniyyətinə marağın, ehtiramın, sevginin təzahürüdür.

Ordu quruculuğuna diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə idarəmizin şəxsi heyəti adından minnətdarlığımı bildirirəm.

Xidmət sahəmizin şəxsi heyəti Müdafiə Nazirliyi rəhbərliyinin bütün tələb və göstərişlərini böyük məsuliyyətlə, Hərbi anda, dövlətə, dövlətçiliyə böyük sədaqətlə yerinə yetirir.

# Naxçıvan Qarnizonu qoşunlarında müxtəlif ixtisaslar üzrə toplantılar keçirilir



*Ötən müddət ərzində keçirilən toplantılarda taqım komandirləri və müavinləri, manqa komandirləri, müxtəlif ixtisaslı gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları iştirak ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantılarda kiçik komandir heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, pedaqoji hazırlıqlarının yüksəldilməsi istiqamətində məşğələlər keçirilib, "Hərbi qulluqçu və hərbi kollektivin psixologiyası" mövzusunda mühazirələr oxunub.



Hazırda müxtəlif ixtisaslı hərbi qulluqçuların cəlb edildiyi komandir hazırlığı və təlim-metodiki toplantılar davam edir.

*Ön xətdə düşüncələr*

# Döyüş növbətçiliyi və Böyük Qələbə

*Təqvimə görə dağlara yağan qar dağların ətəklərinə də yağmalıydı, yağmayıb. Ön xəttə çatanacan gözlərim qar axtarıb, könlüm qar istəyib. Görmədim - yoxuydu.*

Ön xətdəydim.
Səngərdəydim.

Qar yağmadığına bir ürək tutumunca sevindim. Nəyə sevindiyimi bilincə, kapitan Firuz Abbasov gülümsündü, əsgərlərə xitabən dedi ki, qar, yağış, isti-bürkü sizin döyüş növbətçiliyi aparmağınıza təsir göstərirmi, göstərirsə, necə təsir göstərir. Əsgərlərin baxışlarına yozumu mümkünsüz olan incə bir maraq, marağa söykənikli narahatlıq sarıldı. Əsgər Səfər Mürvətov təkcə öz adından deyil, həm də əsgər yoldaşları adından dedi:

- Biz əsgərik, ön xətdə xidmət edirik. Nə yağış, nə qar, nə isti-bürkü, nə şaxta-sazaq döyüş növbətçiliyi aparmağımıza təsir göstərə bilməz. Vətənə sədaqətimiz buna imkan verməz...

Böyük Qələbəyə aparan yolun başlanğıcında bu qətiyyətdə döyüş əzmi gördüm, qələbə ruhu, əsgərlərin baxışlarında əsgər Səfər Mürvətovun dediklərinin təsdiqini gördüm. Onda baxışlarım səngərin o üzünü müşahidə edən əsgərin baxışlarıyla qoşalaşdı; həmin anlarda mən də əsgəriydim, özüm yox, ürəyimin təpəri, ürəyimin təpərini ifadə edən baxışlarım döyüş növbətçiliyi aparırdı.

Kapitan Firuz Abbasov bayaqkı şükranlıq təbəssümünü tamamlayan qürurla əsgərlərə baxdı və inamla dedi ki, əsgər Səfər Mürvətovun bu kəlmələri Vətən sevgisinin ucalığını, ömür fəlsəfəsini ifadə edir. Bu düşüncə, düşüncələrin belə ifadəsi Azərbaycan əsgərinin qüdrətidi. Bu qüdrət 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbənin qüdrətidi, 2018-ci ilin yayında Azərbaycan Ordusunun yaranmasının, payızında Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr edilən paradların möhtəşəmliyinin qüdrətidi. Həmin anlarda bu biçim düşüncələr ilahi qüdrətin səyyarəsiydi, bu səyyarə - ömrümün işığının... Mənə elə gəldi ki, düşüncələrim hələ də baxışlarımı cazibəsində saxlayan mövqedə döyüş növbətçiliyi aparan əsgərlərin sırasındadı. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov adına postda əsgər Əyyub Əliyevin dediklərini xatırladım: Döyüş növbətçiliyinə getməzdən əvvəl Çingizin barelyefi qarşısında ruhuyla xəyalən kəlmələşirik, "Sənin döyüş yolunu davam etdirəcəyik, qardaş!", - deyirik. Bizə elə gəlir ki, mövqeyə gedəndə bizi Çingizin baxışları uğurlayır.



Əsgərin dediyi kəlmələr döyüş növbətçiliyinin mahiyyəti haqqında bilgilərimizi dərinləşdirdi.

Döyüş növbətçiliyinin mahiyyəti torpaqların müdafiəsidi. Döyüş növbətçiliyi aparılan mövqedən düşmənin mövqeləri müntəzəm izlənilir. Şübhəli tərpənişlər hiss ediləndə gərəkli tədbirlər görülür. Müşahidə edilən tərpənişlər həmləyə hazırlığın başlanğıcıdırsa, döyüş növbətçiliyi aparan əsgər təlimata müvafiq qərar qəbul edir, düşmən "əl-qol aça bilmir". Bunları da xatırladım, səngərdə əsgər Tahir Əliyevdən eşitdiklərimi də:

- Hərbi anda sədaqət, Hərbi Nizamnamələrin tələblərini məsuliyyətlə yerinə yetirmək hər bir əsgərin xidməti borcudu, döyüş növbətçiliyi bu borcun davamıdı...

Səngərdə bir əsgər demişdi:

- Hərbi andiçmə günü kimi ilk döyüş növbətçiliyimi də heç zaman unutmayacam. Döyüş növbətçiliyini tək aparmırıq, Vətən sevgimiz də bizimlə yanaşı dayanır.

"Düşüncələrimin işığı o əsgərin kəlmələrinin işığına qarışdı. Bu qadir işıq qarsız qışın dirəşən sazağını sındırdı", - dedim. Onda aylar öncə başqa səngərdə başqa bir əsgərdən eşitdiklərimin eynini eşitdim: "Od həm hərarətdi, həm də işıq. Dünya Azərbaycanı odlar diyarı kimi tanıyır. İşıq bu diyarın ruhundadı". Bu gözəl kəlmələri eşidincə əsgəri bağrıma basdım, qoşa qollarım onun geniş kürəyində çarpazlaşdı. Bu dərk döyüş növbətçiliyini Vətən sevgisiylə çiyin-çiyinə aparan Azərbaycan əsgərinin qətiyyətinə, Hərbi anda sədaqətinə söykənmişdi, şübhəsiz...

Hərbi xidmət əsgəri mətinləşdirir, formalaşdırır, malik olduğu dünyagörüşünü genişləndirir, ruhunu milli-xəlqi ruhun zərrəsinə çevirir; Azərbaycan Ordusunun hər əsgəri "Bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən!" deyir. Səngərdə bu səsləniş Böyük Qələbənin uvertürası kimi dinlənilir.

Azərbaycan əsgərinin döyüş ruhu döyüş əzminin, döyüş əzmi döyüş növbətçiliyinin davamıdı...

Yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı Azərbaycan əsgəri döyüş növbətçiliyini Vətən sevgisiylə çiyin-çiyinə aparır... Azərbaycan əsgərinin qələbə ruhu döyüş növbətçiliyini Böyük Qələbəylə tamamlayacaq!..

**Kapitan
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Latviyada hər üç nəfərdən biri silahlanmış halda ölkəni müdafiə etməyə hazırdır



Latviyanın Milli Müdafiə Akademiyasının təhlükəsizlik və strateji tədqiqatlar mərkəzinin apardığı araşdırmanın nəticələrinə görə, ölkə əhalisinin 31 faizi hərbi müdaxilə olacağı təqdirdə ölkəni silahlanmış halda, əksəriyyəti isə qeyri-hərbi yolla müdafiə etməyə hazır olduqlarını ifadə edib.

Belə analoji sorğu 2016-cı ildə də aparılmış və o vaxt respondentlərin 33 faizi silaha sarılmağa hazır olduqlarını söyləmişdilər. Əvvəlki sorğudan fərqli olaraq, bu dəfə respondentlər ölkəni qeyri-hərbi yollarla müdafiə etməyə hazır olduqlarını da dəyərləndirə biliblər.

Respondentlərin üçdə bir hissəsi, yəni 30 faizi hərbi münaqişə olacağı təqdirdə ölkəni tərk edəcəyini söyləyib.

### Yaponiya özünümüdafiə qüvvələrinin patrul təyyarələri Yaxın Şərqdəki missiyasının icrasına başlayıb



Yaponiya özünümüdafiə qüvvələrinin aviabölməsi Yaxın Şərqdə gərginliyin davam etməsi fonunda kəşfiyyat xarakterli informasiyaların toplanması ilə əlaqədar missiyanın icrasına başlayıb.

Yaponiya Müdafiə Nazirliyinin saytı xəbər verir ki, yanvarın 22-də Cibutidən səmaya qalxan iki patrul təyyarəsi Afrikanın şərqindəki Ədən körfəzinin hava məkanında uçuşlar həyata keçirib. Özünümüdafiə qüvvələrinin aviabölməsi yanvarın 11-də həmin missiyanı icra etmək üçün Yaponiyanı tərk edib. Təyyarələrin vəzifəsi həmin ərazidə Yaponiyaya məxsus ticarət gəmilərinin təhlükəsizliyini təmin etməkdir.

### NATO Gürcüstanda hərbi kontingent yerləşdirmək niyyətindədir



NATO bu il Gürcüstanda hərbi kontingent yerləşdirmək niyyətindədir.

Hərbi qüvvələrin 2020-ci ildə həyata keçiriləcək "Avropanın müdafiəçisi - 2020" təlim layihəsi çərçivəsində Gürcüstana gətiriləcəyi gözlənilir.

Məlumata görə, layihə çərçivəsində NATO Gürcüstandan əlavə, Baltikyanı ölkələrə, Almaniya və Polşaya da hərbi qüvvələr yerləşdirəcək.

Qeyd edilir ki, təlimlər NATO-nun hərbi gücünün yoxlanılması məqsədi daşıyır. Təlimlərlə əlaqədar ABŞ Avropaya 20 min hərbçi göndərəcək. Bu ABŞ-ın son 25 ildə Avropa ölkələrinə göndərdiyi sayca ən böyük qüvvə olacaq. Ən böyük kontingentin isə Polşa ərazisində yerləşdiriləcəyi bildirilir. Ümumilikdə "Avropanın müdafiəçisi - 2020" hərbi təlimlərində 18 ölkədən 37 min hərbi qulluqçunun iştirakı gözlənilir.

Hərbi qulluqçuların və ağır texnikanın yerləşdirilməsinə fevraldan başlanılacaq. Təlimlər isə 2020-ci ilin iyununda baş tutacaq.

### İran yanlışlıqla vurulan təyyarənin qara qutusunu heç bir yerə göndərməyəcək



Tehranda yanlışlıqla vurulan Ukraynaya məxsus təyyarənin qara qutusu heç yerə göndərilməyəcək.

Bu sözləri İranın Yollar və Şəhərsalma naziri Məhəmməd İslami deyib.

Bu gün Nazirlər Şurasının iclasında bu məsələyə baxıldığını bildirən M.İslami qeyd edib ki, İran heç bir tələbə baxmayaraq, şifrələrin Tehranda tədqiq olunmasını istəyir.

**AZƏRTAC-ın materialları əsasında**

*Asudə vaxt*

# Asudə vaxt səmərəli təşkil edilir

*Azərbaycan Ordusunda, o cümlədən cəbhə xəttində yerləşən bütün hərbi hissələrimizdə şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə hərtərəfli şərait yaradılıb. İdeoloji otaqlar və oradakı kütləvi informasiya vasitələrinə aid edilən mətbu nümunələri, televizor avadanlıqları, zəngin ədəbiyyatlarla təmin olunan kibabxanalar şəxsi heyətin istifadəsindədir. Hərbi hissələrimizdə mütəmadi olaraq Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivlərinin şəxsi heyətinin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə konsert proqramları təşkil olunur.*




"N" hərbi hissəsinin zabit və əsgərləri öz vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, istər fiziki, istərsə də mənəvi-psixoloji hazırlıqlarının yüksək səviyyəsinə görə hərbi hissəyə həmişə uğur qazandırırlar. Hərbi hissədə olan səliqə-sahman, nizam-intizam, idman və təlim meydançasındakı əsgərlərin çevikliyi bizdə qürur və fərəh hissi doğurur. Burada əsgər və zabitlərin verilən tapşırıqlara necə tələbkarlıqla yanaşdığının şahidi oluruq. Digər hərbi hissələrimizdə olduğu kimi, burada da şəxsi heyətin asudə vaxtının səmərəli təşkilinə xüsusi diqqət yetirilir.

Hərbi hissənin zabiti Rail Ağayev əsgərlərin mənəvi-psixoloji hazırlığında asudə vaxtın səmərəli keçirilməsinin mühüm ideoloji vasitə olduğunu dedi: "Əsgərlərimiz asudə vaxtlarında daha çox ideoloji otaqlarda yaradılan əyani vasitələrdən istifadə edirlər. Məsələn, onlar qəzet və jurnal oxuyur, maraqlı televiziya verilişlərini izləyirlər. Əsgərlər şahmat və dama oynayır, sənədli və bədii kitablar oxumaqla da istirahət vaxtlarını səmərəli keçirirlər. Bütün bunlar şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək olmasına öz müsbət təsirini göstərir. Qeyd edim ki, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə hərbi hissəmizdə keçirilən bütün konsert proqramları şəxsi heyət tərəfindən maraqla qarşılanır. Onlarda ruh yüksəkliyi yaradır."

Asudə vaxtlarda Azərbaycanın Milli qəhrəmanlarının şərəfli döyüş yolundan bəhs edən filmlərin və xalqımızın qan yaddaşına həsr edilən video-çarxların şəxsi heyətə nümayiş olunduğunu deyən zabit onu da bildirdi ki, bu mövzular ətrafında aparılan söhbətlər əsgərlərin intellektual səviyyələrinin daha da yüksəlməsində mühüm rol oynayır. Əsgərlər stolüstü idman oyunlarına daha çox üstünlük verirlər. Bu da onların idman vərdişlərinin davamlı olduğunu göstərir. Bir sözlə, hərbi hissəmizdə əsgərlərin asudə vaxtları onların ürəyincə təşkil olunur.

Əsgərlər Xalid Salmanlı, Əfqan Axundov, Səbuhi Fərzəliyev, İbrahim Şahverdiyev, Əfsun Dədəliyev, Əli Hüseynov və başqaları bildirdilər ki, onları asudə vaxtdan çox Böyük Qələbə düşündürür.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# "Corner Shot" silahı



"Corner Shot" İsrail xüsusi təyinatlılarının veteranı Amos Qolan tərəfindən yaradılıb və silah bucaq altında atəş açmağa imkan verir. İstehsalçısı Korner Şot Holdinq müəssisəsi olan silah 2003-cü ildən istehsal olunur.

Silahın iki kamerası var (uzaqdan görmə və dairəvi müşahidə üçün "fish eye" - "balıq gözü"). Silahın lüləsini sağa, sola, aşağı və yuxarı 45 dərəcə bucaq altında yönəldirmək mümkündür. Silahı hədəfə doğru tuşlayaraq gizləndiyiniz yerdən çıxmadan ətrafı müşahidə etmək mümkündür. Bu da düşmənə görünmədən ona atəş açmağa imkan yaradır.

Silahın standart versiyası tapança və 40 mm-lik qumbaraatandır. Bütün modelləri eyni standart kamera və 2,5 düyümlü rəngli monitorla buraxılır. Bu da yüksək keyfiyyətlə videogörüntünü və müşahidəni sistemə ötürməyə imkan verir. Qumbaraatanından 40 mm-lik qumbaraları, həmçinin göz yaşardıcı mərmiləri atmaq olur. Onun dəqiq atəşaçma diapazonu yeganə hədəf üçün 150 metr, ərazini qəlpəli döyüş sursatları ilə əhatə etmək üçün isə 360 metrdir.



Ondan müxtəlif növ atıcı silahlarda da (Beretta 92F, Glock, SIG Sauer, CZ və hətta M16 tüfəngi və 44 mm-lik minaatanda) istifadə etmək olar.

Silahın çəkisi 3,86 kiloqram, uzunluğu 820 millimetrdir.

Onun mexanizmində müxtəlif qurğular - kamera, audio-video dəstləri, lazer nişangahı, teplovizor (istiliyə reaksiya verən nişangah), səsboğucu və taktiki fənərlər quraşdırmaq mümkündür. Silahın fənər və kamerası gecə də, gündüz də işləməyə qadirdir. Bundan başqa silah elə hazırlanıb ki, burada əlavə olaraq yığılıb-qatlanan inventar və deyişilən kamera da quraşdırmaq olar.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## 20 Yanvar şəhidlərinin xatirəsinə ciu-citsu üzrə Bakı turniri keçirilib




Hövsan Olimpiya İdman Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə yeniyetmələr və gənclər arasında ciu-citsu üzrə Bakı turniri keçirilib.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Ciu-citsu Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışa 9 klubdan 150 idmançı qatılıb.

Turnirin qalibləri Baş İdarə və federasiya tərəfindən mükafatlandırılıblar.

## Karate üzrə 11-ci beynəlxalq "Baku Open" turniri keçiriləcək




Martın 5-8-də Boks Mərkəzində 11-ci beynəlxalq "Baku Open" karate turniri keçiriləcək.

Yarışda 6-13 yaşlı uşaqlar, 14-15 yaşlı yeniyetmələr, 16-17 və 18-20 yaşlı gənclər, böyüklər və veteran karateçilər iştirak edəcəklər.

Fərdi və komanda yarışlarında 10-dan artıq ölkədən 1000-dək idmançının iştirakı gözlənilir.

## "Qarabağ" klubu Antalyada Qazaxıstanın "Jetisu" komandasını məğlub edib



Yanvarın 22-də Türkiyənin Antalya bölgəsində təlim-məşq toplanışında olan "Qarabağ" klubu yoxlama oyununda Qazaxıstanın "Jetisu" klubu ilə qarşılaşıb. Görüş "Qarabağ"ın minimal hesablı qələbəsi ilə başa çatıb - 1:0. Qolu 5-ci dəqiqədə Mahir Əmrəli vurub.

"Qarabağ" komandası ilk oyunda "Akademika Klinçeni" (Rumıniya) ilə heç-heçə etmişdi - 2:2.

## Sambo üzrə açıq paytaxt birinciliyinin qalibləri müəyyənləşib



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Abşeron Olimpiya İdman Kompleksində 2002-2003-cü il təvəllüdlü idmançılar arasında sambo üzrə açıq paytaxt birinciliyi keçirilib. Birincilikdə 10 çəki dərəcəsi üzrə 127 idmançı mübarizə aparıb.

Yarışda Məhəmmədmehdi Əbilov (48 kq), Rasim Hüseynov (52 kq), Rövşən Hüseynov (56 kq), Rəvan Rüstəmli (60 kq), Kərəm Babazadə (65 kq), Murad Bəçirov (70 kq), İlkin Əhmədzadə (75 kq), Adil Adilzadə (81 kq), Cahangir Məmmədov (87 kq) və Orxan Məcidli (87 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

İlk üç yeri tutan idmançıları BŞGİBİ müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif edib.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 28
Nüsxə 3900